


## “Yaşıl dünya” naminə həmrəylik



# Azərbaycan dövlətinin “yaşıl” iqtisadiyyata keçid strategiyası

**Prezident İlham Əliyevin qlobal iqlim dəyişikliyi ilə bağlı məsələlərə ciddi yanaşmasının, karbon emissiyalarının mümkün qədər azaldılması ilə əlaqədar strateji planların hazırlanması və gerçəkləşdirilməsinin nəticəsidir ki, Azərbaycanda bu il daha bir əhəmiyyətli tədbirin – BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının keçirilməsi qərara alınıb.**




Prezident İlham Əliyev COP29-un respublikamızda reallaşması qərarını ölkəmizin növbəti böyük uğura imza atması, eyni zamanda, dünya ölkələrinin Azərbaycana bir daha böyük etimad və hörmət göstərməsi kimi dəyərləndirib. Dövlətimizin başçısı deyib: “Biz buna layiqik, biz apardığımız siyasət nəticəsində dünya miqyasında çox güclü mövqelərə sahib olmuşuq. Azərbaycana beynəlxalq aləmdə olan hörmət günbəgün artır və biz bu hörməti öz əməlimizlə, işimizlə, siyasətimizlə qazanmışıq”.

COP29-un ölkəmizdə keçirilməsi Azərbaycanın beynəlxalq aləmdəki nüfuzunu daha da möhkəmləndirəcək və iqlim dəyişikliyi ilə mübarizədə qlobal səylərə töhfəsini artıracaq. Eyni zamanda, ölkələri bir araya gətirməklə ətraf mühitin yaxşılaşdırılması, insanların sağlamlığı və təhlükəsizliyi üçün ciddi təhdidlərin aradan qaldırılması istiqamətində qərarların qəbulunu şərtləndirəcək.

Bütün bu qeyd edilənlər barədə 50-yə yaxın ölkədən 150-dən çox xarici qonağın, o cümlədən 30-a yaxın ölkənin informasiya agentliyi, 3 beynəlxalq təşkilat və 82 media qurumunun qatıldığı 2-ci Şuşa Qlobal Media Forumunda ətrafl məlumat verilib, geniş fikir və təcrübə mübadiləsi aparılıb. Ən başlıcası isə Prezident İlham Əliyev tərəfindən COP29-un respublikamızda reallaşması ilə bağlı suallar cavablandırılıb. Dövlətimizin başçısının verilən suallara cavabından, ilk növbədə, bir məqam aydın nəzərə çarpır. Belə ki, Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Dubay şəhərində keçirilən COP28-də olduğu kimi, COP29-a ciddi hazırlaşıldığı bir vaxtda Qərb mediasının bu nüfuzlu, taleyüklü tədbiri mənfi, qərəzli işıqlandırması, bu neqativ prosesin indi də davam etdirilməsi fikrinə ölkə rəhbərinin münasibəti diqqət çəkir: “Bizim namizədliyimiz və evsahibliyimizlə bağlı qərar verildikdən sonra – növbəti həftə Qərb mediasında bizə qarşı hücumlar başladı. Bu, gözlənilən bir hal idi və bunu müzakirə etdiyim bir çox şəxslərlə danışıqlarımda, – həmkarlarımı, dövlət və hökumət başçılarını nəzərdə tuturam, – onlar mənə deyirdilər ki, bu, Azərbaycan üçün böyük başağrısı olacaq. Əlbəttə, biz dərk etdik ki, hücumlara məruz qalacağıq. Biz əlbəttə, bunu proqnozlaşdıra bilmərik ki, ittihamların mövzusu necə olacaqdır? Amma əminəm ki, kifayət qədər ittihamlar olacaqdır”.

Bəs BƏƏ, eləcə də Azərbaycan COP-a evsahibliyi etməkdə hansı “günahlarına” görə ittiham edilirlər? Bu qərəzin arxasında hansı səbəblər dayanır? Prezident İlham Əliyev bütün bunlar barədə verilən sualı əhatəli cavablandırdı. Dövlətimizin başçısı BƏƏ-nin, eləcə də Azərbaycanın, əsasən, neft və qazla zəngin olan ölkələr olduğu üçün Qərb mediasının hücumlarına məruz qaldığını bildirdi.

Bəli, Azərbaycanın COP29-a evsahibliyi etmək etimadı göstərildiyi ilk gündən Prezident İlham Əliyevin vurğuladığı kimi, ölkəmiz çox təəccüblü bir halla üzləşdi, respublikamıza qarşı çox geniş və koordinasiyalı media prosesi başladı. Dövlət başçısının da etiraf etdiyi kimi, Azərbaycan ilk vaxtlar buna hazır deyildi. Düzdür, müxtəlif səviyyəli tədbirlərdə “respublikamızın zəngin neft-qaz ölkəsi olması heç də onun günahı deyil”, – deyə bildirilirdi. Əlbəttə, Azərbaycanın fəaliyyətinin bu səbəbə görə mənfi qiymətləndirilməsi, əslində, qərəzdən, məsələyə qeyri-obyektiv yanaşmadan başqa bir şey deyildi. Qərb mediası ölkəmizə qarşı qərəzli bir münasibət sərgiləmək əvəzinə, Azərbaycan həqiqətlərini işıqlandırmağa üstünlük verməli idi. Məsələn, Azərbaycanın müstəqillik əldə etdiyi qısa bir zaman məsafəsində nail olduğu sosial-iqtisadi uğurlara hansı yollarla çatması, iqtisadiyyatı necə şaxələndirməsi, işsizliyin öhdəsindən necə gəlməsi, yoxsulluğu necə azaltması səbəblərini təhlil edib obyektiv fikirləri diqqətə çatdırmalı idi.

Bu mövzuda danışan Prezident İlham Əliyev toplantı iştirakçılarına xatırlatdı ki, hazırda Azərbaycanın sosial-iqtisadi göstəriciləri inkişaf edən ölkələrin səviyyəsindədir, yoxsulluq 5 faiz həddindədir. Qazıntı yanacaq növlərindən əldə etdilən gəlirlər çox şəffaf şəkildə, məsuliyyətli, ədalətli paylanılır: “Buna baxmayaraq, ittihamlar davam edir. Ancaq deyə bilərəm ki, vaxt keçdikcə bizə qarşı hücumların sayı azalır, bizim COP heyətimiz çox səmərəli işləyir, öz vaxtının böyük hissəsini xaricdə keçirir, müxtəlif görüşlər keçirir. Bizim COP-la bağlı gündəliyimiz proqnozlaşdırılabilən, aydın hədəflərə, məqsədlərə, nəticələrə köklənmiş gündəlikdir. Deyə bilərəm ki, qərardan altı ay keçdikdən sonra biz daha az hücuma məruz qalırıq. Ancaq onu bilirik ki, tədbir yaxınlaşdıqca bu ittihamların və hücumların sayı artacaqdır”.

Yeri gəlmişkən, Qərb mediasında bu mövzuya – COP29-a qərəzli yanaşma ədalətsiz və ikili standartlara əsaslanaraq işıqlandırılır. Bu fikrin təsdiqi olaraq bir məqamı xatırlatmaq istərdik. Belə ki, dövlətimizin başçısının müəyyən suala cavabında vurğuladığı kimi, COP tədbirinin biri Qlazqoda – Böyük Britaniyanın neft hasil etdiyi bir bölgədə keçirilib və heç kəs o zaman bu ölkəni ittiham etməyib. Halbuki həmin coğrafiya dünyada neft və qazı ilə tanınıb.

Bəli, Qərb mediası COP kimi belə bir nüfuzlu tədbirə qərəzlə yanaşmaq əvəzinə, onun əhəmiyyəti, dünya əhalisi üçün taleyüklü olması barədə yazılar verməlidir. Qlobal miqyasda son illər ciddi narahatlıq yaradan istiləşməyə, iqlim dəyişkənliyinə və bu hadisələrə qarşı mübarizəyə həsr olunan materiallar diqqətdə saxlanılmalıdır.

Prezident İlham Əliyev COP29-u dünyada, beynəlxalq arenada bir nömrəli konfrans kimi qiymətləndirdi. Eyni zamanda, bu nüfuzlu tədbirin ilk dəfədir ki, postsovet məkanında keçirildiyini, Azərbaycan üçün misilsiz bir şans olduğunu, həmçinin bu toplantı ilə respublikamızın ən yüksək liqaya yüksəldiyini bildirdi: “Biz təkcə təşkilati baxımdan işlər görmürük, mahiyyət baxımından da təşəbbüslər irəli sürürük. Biz inkişaf etmiş ölkələrlə fəal şəkildə işləyirik. Biz Qlobal Cənub və Qlobal Şimal arasında körpülər qururuq. Bizim üstünlüyümüz ondan ibarətdir ki, dörd il ərzində Qoşulmama Hərəkatına sədrlik etmişik. 120 ölkənin iştirakı ilə orada yekdil şəkildə sədr seçilmişdik və sədrlik müddətimiz də uzadıldı. Sədrliyimiz dövründə biz böyük nüfuz qazandıq”.

Dövlətimizin başçısı fikirlərinə əlavə edərək xatırlatdı ki, Azərbaycan bəlkə də yeganə ölkədir ki, regionda və postsovet məkanında Avropa İttifaqı (Aİ) dövlətləri ilə, Aİ-nin 10 üzvü ilə strateji tərəfdaşlıq haqqında bəyannamələr imzalayıb. Respublikamız İslam Əməkdaşlıq Təşkilatına, “OPEC Plus” formatına üzv seçilib.

Yeri gəlmişkən, bu məsələ ilə əlaqədar Şuşa Qlobal Media Forumunda səsləndirilən bir fikri də xatırlatmaq istərdik. Tədbirdə bildirildi ki, Qərbin dünyanın həyatına təsir göstərmək istəyinə və dekarbonizasiya ilə bağlı iddialarına baxmayaraq neft-qaz öz aktuallığını bu gün də saxlayır. Məsələn, ABŞ-da bu məsələyə 100 milyardlarla dollar xərclənir. Həmçinin ötən il Birləşmiş Ştatlar tarixində ilk dəfə olaraq neft-qaz sahəsində ən böyük hasilata nail olunub. Amma buna baxmayaraq ABŞ, eləcə də Azərbaycan “yaşıl enerji” məsələsinə sadiqdir.

Artıq Azərbaycan inkişafda olan kiçik ada ölkələri ilə də əməkdaşlıq edir. Bu ölkələrlə münasibətlərin getdikcə genişləndirilməsi diqqət mərkəzində saxlanılır. Respublikamızın bu məsələ ilə bağlı COP29 çərçivəsində ittifaq ölkələrinin də qoşulacağı tədbir keçiriləcəyi gözlənilir.

Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan ittifaq ölkələri ilə birgə fond yaradılacağını və bu yeni qurumla inkişafda olan kiçik ada ölkələrinə kömək ediləcəyini qarşıya mühüm vəzifə kimi qoyur. Çünki indiki qlobal vəziyyət onların mövcudluğuna təhlükədir. Respublikamız bu gün həm də BƏƏ-nin COP28-in ev sahibi kimi təcrübəsindən istifadə ediləcəyinə, bu təcrübəyə əsaslanılaraq fəaliyyət göstəriləcəyinə xüsusi önəm verildiyini bildirir.

Yeri gəlmişkən, dövlət başçısının Azərbaycanın ittifaq ölkələri ilə birgə fond yaradılması təşəbbüsü hazırda inkişafda olan kiçik ada ölkələri tərəfindən yüksək dəyərləndirilir. İqlim Maliyyəsi Fondu (Climate Finance Action Fund) adlandırılan bu qurumun təşkili, əslində, respublikamızın təşəbbüsüdür. Belə bir maliyyə mexanizminin qurulmasında əsas məqsəd iqlim dəyişikliyi ilə mübarizəyə töhfə verməkdir. Ekspertlər bildirirlər ki, bu fondun fəaliyyəti üçün hələlik qrant əsaslı 1 milyard dollar vəsait toplanılması zəruridir.

Sözügedən fond çoxtərəfli bir maliyyə mexanizmi kimi fəaliyyət göstərəcək. Çoxtərəfli maliyyə təşkilatları onun fəaliyyətinə nəzarət edəcək. Bakı isə fondun katibliyinə evsahibliyini həyata keçirəcək.

Mütəxəssislərin fikrincə, fondun yaradılmasından əsas məqsəd kiçik ada dövlətlərinə təbii fəlakətlər zamanı yardım etməkdir. Ayrılacaq vəsaitin 50 faizinin iqlim fəaliyyətinə, “yaşıl enerji” texnologiyalarına yönəldilməsi, investisiyalardan gələn gəlirlərin 20 faizinin isə “2R2F” adlandırılan maliyyə mexanizmi vasitəsilə inkişaf etməkdə olan ölkələrə istiqamətləndiriləcəyi nəzərdə tutulur.

Xatırladaq ki, Prezident İlham Əliyev iyulun 13-də ATƏT-in baş katibi xanım Helqa Mariya Şmidini qəbul edərkən də bu barədə fikirlərini diqqətə çatdırıb. Dövlətimizin başçısı ölkəmizin “yaşıl keçid” siyasəti və bu istiqamətdə görülən tədbirlərdən danışaraq inkişaf etməkdə olan kiçik ada dövlətlərinin Azərbaycanın gündəliyində prioritet istiqamətlərdən biri olduğunu deyib və “Commonwealth” təşkilatı ilə birlikdə kiçik ada dövlətləri ilə əlaqədar xüsusi fondun yaradılması istiqamətində iş aparıldığını xatırladıb.

Qeyd edək ki, iqlimlə bağlı Azərbaycanın belə bir təşəbbüsü qlobal maliyyə institutları, eləcə də inkişafda olan kiçik ada ölkələri tərəfindən dəstəklənir, bununla da respublikamızın yaşamaq üçün əlverişli planet və yoxsulluqdan azad bir dünya yaratmaq niyyətinə müsbət mesajlar verilir.

Bir sözlə, yeni yaradılacaq fond istiləşməni 1,5°C-yə qədər saxlamaq üçün dəstəyə ehtiyacı duyulan inkişaf etməkdə olan ada ölkələrində iqlim layihələrini maliyyələşdirəcək.

Yeri gəlmişkən, bu gün inkişafda olan ölkələrdə iqlim dəyişikliyinin yaratdığı fəsadlara qarşı daha çox həssaslıq nəzərə çarpır. Bu məqsədlə 2009-cu ildə Danimarkada reallaşan COP15-də inkişaf etmiş ölkələr 2020-ci ilə qədər inkişaf etməkdə olan inkişafda olan kiçik ada ölkələrində iqlim dəyişmələri ilə bağlı problemlərin həlli məqsədilə hər il 100 milyard dollar məbləğində vəsait səfərbər etməyi öhdələrinə götürmüşdülər. Hazırda isə qlobal olaraq, təxminən, 73 ictimai və ya qismən ictimai iqlim fondu mövcuddur. Bu gün onların fəaliyyəti effektiv şəkildə əlaqələndirilmir. Çərçivə Konvensiyasının çətiri altında olan vəsaitlər kifayət qədər kapitallaşdırılmayıb. Bu fondların 2020-ci ildə müxtəlif layihə və proqramlara, ümumilikdə, 3-4 milyard dollar ödədiyi bildirilib.

Azərbaycanın COP29-da sədrliyi ən mühüm mövzuya – iqlimin maliyyələşdirilməsinə həsr olunub. İtki və Zərərlərin Ödənilməsi Beynəlxalq Fondu tərəfindən sənaye güclərinin inkişaf etməkdə olan ölkələrə yardım göstərməsinə imkan yaratmaq üçün kompensasiya mexanizmi təqdim edilib. Bununla belə, adıçəkilən fond indiyədək cəmi 429 milyon ABŞ dolları toplayıb ki, bu da həmin ölkələrə dəymiş zərərdən xeyli az olub. Buna görə də ekspertlər tərəfindən Bakıda keçiriləcək COP29-a iqlim maliyyəsinin ədalətli bölüşdürülməsi platforması kimi yanaşılıb.

“Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə” mövzusunda 2-ci Şuşa Qlobal Media Forumunda Azərbaycanın bərpaolunan enerji sahəsində böyük nailiyyətlərə imza atması, ölkəmizdə ən böyük Günəş Elektrik Stansiyasının – 230 meqavat gücündə stansiyanın istifadəyə verilməsi, hazırda isə 240 meqavatlıq külək elektrik enerjisi stansiyasında işlərin yekunlaşma mərhələsində olması, habelə tezliklə 240 meqavatlıq Günəş Elektrik Stansiyasının açılışının gerçəkləşəcəyi ilə bağlı məsələlər diqqətə çatdırılıb.

Bildirildi ki, birinci layihə “Masdar” şirkəti, ikinci layihə isə “Acwa Power” şirkəti tərəfindən həyata keçirilir. Üçüncüsünün isə BP tərəfindən inşa ediləcəyi nəzərdə tutulur.

Adları çəkilən şirkətlər dünyanın aparıcı enerji qurumlarıdır. Bununla yanaşı, ötən ay Bakıda 3 günəş və külək elektrik stansiyasının təməli qoyulub, ümumi həcm isə bir qiqavatdır. Bu gün Azərbaycanda bu sahədə çox böyük işlər görülür.

Ölkəmizin həm texniki, həm də iqtisadi baxımdan zəngin “yaşıl enerji” potensialı var. Belə ki, dənizdə külək enerjisi potensialı 157 qiqavatdır. Beynəlxalq Maliyyə Korporasiyasının hesablamalarına görə, iqtisadi baxımdan quruda günəş və külək stansiyalarının potensialı göstərir ki, Azərbaycan çox böyük həcmdə–27 qiqavat gücündə bərpaolunan enerji istehsal edə bilər.

Bütün bunlarla bağlı dövlətimizin başçısı Şuşa Qlobal Media Forumunda dedi: “Hazırda biz texniki əsaslandırma işləri həyata keçiririk. Söhbət Xəzər dənizindəki külək enerji stansiyalarından Rumıniyaya Qara dənizin dibi ilə uzanacaq elektrik kabel layihəsindən gedir. Orada da potensial dörd qiqavatdır. Biz “Acwa Power” şirkəti ilə saziş imzalamışıq ki, istehsal edilən bərpaolunan enerjinin saxlanma şəraiti olmalıdır, imkanlar olmalıdır. Çünki bu, ən böyük problemdir. Siz bunu istehsal edə bilərsiniz, ancaq bir növ nəhəng bir batareya şəklində inşa ediləcək bu layihə. Ona görə də biz oraya həm sərmayə cəlb edirik və bu işə öz sərmayəmizi də yatırırıq. Bununla yanaşı, bu, bizə imkan verəcək ki, təbii qaza qənaət edək. Bu gün Avropanın bizim qaza böyük ehtiyacı var. Mən nəyə görə dedim ki, gəlin riyakarlığa son qoyaq?! Bir tərəfdən Avropa bizdən xahiş edir ki, hasilatı artıraq və onu Avropaya nəql edək. Çünki onların buna ciddi ehtiyacı var. Digər tərəfdən, onlar bunu maliyyələşdirmirlər və bu, mənim avropalı həmkarlarımla müzakirələrimdə mövzudur”.

Xəzər dənizindəki külək enerji stansiyalarından Rumıniyaya Qara dənizin dibi ilə uzanacaq elektrik kabel layihəsindən danışarkən qeyd edək ki, son vaxtlar respublikamızda “yaşıl enerji”nin ixrac potensialının gücləndirilməsi ilə bağlı ciddi layihələr icra edilib. Məsələn, Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında imzalanan dördtərəfli müqavilənin gerçəkləşdirilməsi ilə əlaqədar genişmiqyaslı işlər görülüb, keçirilən tenderin nəticəsində artıq qalib şirkətlə müqavilə imzalanıb.

Qara dənizin dibi ilə yaradılacaq “yaşıl dəhliz” layihəsi öz aktuallığını getdikcə artırır. Layihəyə beynəlxalq maliyyə dəstəyinin gücləndirilməsi də məhz bundan qaynaqlanır. Bugünlərdə Dünya Bankının İcraçı Direktorlar Şurası elektrik enerjisi və bərpaolunan enerji mənbələri proqramı (ESPIRE) vasitəsilə enerji təhlükəsizliyinin gücləndirilməsi üzrə proqramın birinci mərhələsinin maliyyələşdirilməsi üçün 35 milyon ABŞ dolları məbləğində krediti təsdiqləyib. Bu barədə Dünya Bankı məlumat yayıb.

Xatırladaq ki, ESPIRE proqramı Qara dəniz sualtı kabel layihəsinin inkişafı üçün Gürcüstanın institusional imkanlarının yaxşılaşdırılması, yerli elektrik ötürmə sistemininin möhkəmləndirilməsi, eləcə də Cənubi Qafqaz və Cənub-Şərqi Avropa arasında birbaşa enerji əlaqəsinin qurulmasını hədəfləyən 500 milyon ABŞ dolları dəyərində potensial maliyyələşdirmə paketi ilə birlikdə üç mərhələdən ibarətdir. Sözügedən proqram təyinat nöqtələri Gürcüstan və Rumıniyada olmaqla Qara dəniz boyunca paralel sualtı kabel elektrik ötürmə xətləri və fiber optik kabelin çəkilməsini hədəfləyən Qara dəniz sualtı kabel layihəsinin (BSSC) hazırlığının növbəti mərhələlərini dəstəkləmək üçün nəzərdə tutulub.

Yeri gəlmişkən, dünyada ənənəvi enerji mənbələrindən “yaşıl enerji”yə keçidin sürətləndirilməsi ilə əlaqədar neft, qaz və ya kömür kimi təbii sərvətlərlə zəngin ölkələr belə, enerji siyasətində müəyyən dəyişikliklərə başlayıblar. Bunun nəticəsidir ki, hazırda dünyada enerji istehlakının 20 faizə yaxını bərpaolunan enerji mənbələrinin payına düşür. Hətta bir sıra ölkələr 2035-2050-ci ilə qədər mədən yanacaqlarından tamamilə imtina etməyi və “yaşıl enerji”dən istifadəyə keçməyi planlaşdırırlar.

Azərbaycan və Rumıniya arasında “yaşıl enerji”nin ötürülməsi məqsədilə Gürcüstan və Qara dənizdən keçəcək sualtı elektrik enerjisi kabelinin çəkilməsi nəzərdə tutulan sazişə əsasən, Xəzər dənizi üzərində və ətrafında yaradılacaq bərpaolunan enerji mənbələrində istehsal olunan “yaşıl enerji”nin Azərbaycandan Gürcüstana, oradan kabel xətti ilə Qara dənizin altından keçməklə Rumıniya və Macarıstana, daha sonra isə Avropa Birliyi ölkələrinə ötürülməsi, bununla da “Xəzər – Avropa Birliyi Yaşıl Enerji Dəhlizi”nin yaradılması tərəflər arasında əsas prioritet olaraq qəbul edilib.

Qara dənizin dibi ilə çəkiləcək 4 qiqavat gücündə və 1195 kilometr uzunluğunda olan kabel ölkəmizdə istehsal edilən “yaşıl enerji”nin Avropaya ixracına imkan yaradacaq. Beləliklə, Azərbaycan Avropa qitəsinin enerji təhlükəsizliyinin daha dolğun və əhatəli şəkildə təmin edilməsində yaxından iştirak edəcək.

Ötən il, həmçinin “yaşıl enerji” ilə bağlı ilk Yaşıl Enerji Məşvərət Şurası keçirilib. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında Yaşıl Enerji Zonasının yaradılması ilə bağlı tədbirlər reallaşdırılıb. Naxçıvandan Türkiyəyə elektrik enerjisinin ixracı istiqamətində də çox ciddi layihələrin icrasına başlanılıb.

***Vaqif BAYRAMOV***
***XQ***